**Kurbanov G.S.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.50-62**
**UDC: 340.1**

## Legal system of modern Azerbaijan

**Abstract:** The article states that, the legal system of Azerbaijan is an original type of modern law. It becomes apparent that Azerbaijani law, which has passed a unique historical path in the traditions of the development of modern Russian (as well as former Soviet) law, is moving towards the German group of the Romano-Germanic legal system, but at the same time it also studies the progressive aspects of the Anglo-Saxon and Islamic legal systems of the world.

Currently, the legal system of Azerbaijan is undergoing a stage of improvement, reform and modernization, while maintaining its uniqueness and at the same time leading to a modern global legal processes. The legal system of our country is a real one, and is naturally sustained by universal human values. But along with that, our legal system is an independent type of legal system, and accordingly has its own history of formation and development. In the end, it is indicated that the legal system of Azerbaijan has its own national, characteristic and specific features.

**Keywords:** modern law; power; legal family; features; general legal values; lawmaking procedure; specific features.

## References

1. Constitution of the Republic of Azerbaijan. Baku, 2016 (in Azerbaijani).
2. Jafarli N.M. Comparative jurisprudence.Baku, Elm ve Tehsil Publ., 2018, 332 p. (in Azerbaijani).
3. Malikova M.F. State and Legal Theory. Baku, Maarif Publ., 1988, 383 p. (in Azerbaijani).
4. Burnam W. Introduction to the law and the US legal system. Moscow, New Justice Publ., 2006, 332 p. (in Russian).
5. Bykova E.V. Modern processes of rapprochement and delimitation of legal systems. Moscow, Yurlitinform Publ., 2012, 232 p. (in Russian).
6. David R., Joffre-Spinosi K. Basic legal systems of the present. Moscow, International relations Publ., 2009, 492 p. (in Russian).
7. Leger Raymond. Great legal systems of modernity: a comparative legal approach. Moscow, Wolters Kluwer Publ., 2010, 592 p. (in Russian).
8. Marchenko M.N. Legal Systems of the Modern World: Study Guide. Moscow, Zertsalo-M. Publ., 2008, 528 p. (in Russian).

[♦] **Kurbanov Gabil Surkhay oglu** - Doctor of Juridical Sciences, Professor, Chairman of the Free Trade Union of ANAS (Azerbaijan). E-mail: professorqurbanov@yandex.com

Qurbanov H.S.[♦]

DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.50-62
UOT: 340.1

# Müasir Azərbaycanın hüquq sistemi

**Xülasə:** Təqdim olunan məqalənin qirişində qeyd edilir ki, Azərbaycanın hüquq sistemi müasir hüququn müstəqil tipidir.Aydın olur ki, müasir Rusiya (həmçinin, keçmiş sovet) hüququnun inkişaf ənənələri əhatəsində özünəməxsus tarixi yol keçmiş Azərbaycan hüququ roman-german hüquq ailəsinin german qrupuna doğru hərəkət etməklə yanaşı, eyni zamanda da dünyanın ingilis-sakson və islam hüquq sistemlərinin də mütərəqqi cəhətlərini əxz etməyə meyllidir.

Hazırda Azərbaycanın hüquq sistemi özünəməxsusluğunu saxlamaqla və eyni zamanda da müasir ümumdünya hüquqi proseslərinə kompleks halda yaxınlaşmaqla özünün təkmilləşmə, islahatlaşma və yeniləşmə mərhələsini yaşayır. Ölkəmizin hüquq sistemi real olaraq mövcuddur. O, qanunauyğun surətdə bəşəriyyətin ümumhüquqi dəyərlərindən qidalanır. Ancaq bununla yanaşı, hüquq sistemimiz hüquq sisteminin müstəqil tipidir. Belə ki, o özünün təşəkkül tapma, formalaşma və inkişaf tarixinə malikdir. Nəticədə göstərilir ki, Azərbaycanın hüquq sisteminin özünəməxsus milli, səciyyəvi və spesifik əlamətləri vardır.

**Açar sözlər:** müasir hüquq; hakimiyyət; hüquq ailəsi; xüsusiyyətlər; ümumhüquqi dəyərlər; qanunyaratma qaydası; spesifik əlamətlər.

Azərbaycanın hüquq sistemi müasir hüququn müstəqil tipidir. Azərbaycan hüququ dövlət-mütəşəkkil cəmiyyət şəraitində formalaşmağa başlamış, bu da bəşəriyyətin tarixində onun üçün xüsusi olaraq ayrılmış mərhələlərdən biri olmuşdur. Azərbaycan dövlətçiliyinin müəyyən inkişaf dövrlərində ölkənin bir-birinin ardınca (əvvəlcə Əhəmənilərin və Sasanilərin, sonra ərəb xilafətinin) ayrı-ayrı imperiyaların hakimiyyəti altında olması, sonrakı dövrlərdə ölkədə hökm sürən feodal pərakəndəliyi və nəhayət, mərkəzləşmiş Səfəvilər dövlətinin süqutundan sonra meydana gəlmiş xanlıqlar (hər bir xanlıq ayrılıqda özü üçün müstəqil dövlət idi) dövründə Azərbaycanda normativ orijinallığa malik hüquq və hüquq sistemi formalaşa bilməmişdir. Azərbaycanda hüquq sisteminin formalaşması prosesi ökənin Rusiya imperiyası tərəfindən XIX yüzilliyin birinci yarısında ilhaq edilməsindən sonra başlanmışdır. Bu, böyük bir prosesin başlanğıcı olsa da, lakin özünün bəzi dolanbaclı istiqamətləri ilə də yadda qalmışdır.

Böyük vahid dövlətin ikiyə parçalanması qədim və zəngin maddi-mənəvi mədəniyyətə malik xalqın bir-birindən ayrı düşməsilə nəticələndi. Lakin Cənubi Azərbaycanda İran feodal hakimiyyətinin despotik rejimi ilə müqayisədə, kapitalist istehsal üsulunun tədricən bərqərar olduğu Rusiya imperiyasının tam hakimiyyəti altında olan Şimali Azərbaycanda vəziyyət nisbətən ümidverici idi. Böyük bir imperiyanın bütün digər sferaları ilə yanaşı, onun elmi sferası da Azərbaycana təsirsiz ötüşmədi, şübhəsiz ötüşə də bilməzdi. Azərbaycan onun ona zorla birləşdirilmiş tərkib hissəsi idi. Təbii ki, imperiyanın mərkəzində işlənib hazırlanan əksər tədbir planları Azərbaycanda da tətbiq edilməli idi. Azərbaycanın isə həmin tədbirlərin iştirakçısı olmaqdan savayı, heç bir başqa çarəsi qalmırdı.

[♦] **Qurbanov Habil Surxay oğlu –** hüquq elmləri doktoru, professor, AMEA Azad Həmkarlar İttifaqının sədri (Azərbaycan). E-mail: professorqurbanov@yandex.com

Bu cəhətdən müstəmləkəçi imperiyanın o dövrdəki hüquq sisteminə adaptasiya olunmaq yeganə, həm də müəyyən mənada pozitiv yönümlü çıxış yolu idi. Rusiyanın həmin tarixi mərhələdə mövcud olan hüquq sistemi müəyyən mənada Azərbaycanın da hüquq sisteminin formalaşması başlanğıcında öz rolunu oynadı.

Bəs, ümumiyyətlə, Rusiyanın hüquq sistemi hansı inkişaf xüsusiyyətlərinə malik olmuşdur? Rusiyanın tarixi-mədəni və normativ orijinallığını müəyyənləşdirən amillər həm də onun hüquq sisteminin inkişaf yollarının aşağıdakı spesifikliyini əks etdirirlər:

1) Rusiya dövlətçiliyi iki metasivilizasiyanın – Qərb və Şərq sivilizasiyalarının kəsişməsində təşəkkül tapmışdır;

2) onun formalaşmasının lap başlanğıcında ölkədə xristianlığın özünəməxsus forması – cəmiyyətin mənəvi hüquqi dayaqlarına xeyli təsir göstərmiş rus provaslavlığı təşəkkül tapmışdır;

3) tarixi şərait nəticəsində Rusiyada cəmiyyətdəki münasibətlərin normativ tənzimlənməsi təcrübəsinin varisliyinə və mənimsənilməsinə əsaslanan sabit hüquqi ənənələr qərarlaşmadı;

4) XX yüzillikdə uzun zaman ərzində rus dövləti, həm də rus hüququ dünyada təşəkkül tapmış dövlət və hüquq sistemlərindən fərqli ölkə və hüquq sistemi yaratmağa, edilən utopik cəhd nəticəsində süni ideoloji təcrid şəraitində qaldı [8, s. 32].

Yuxarıda qeyd olunan amillərin XİX yüzilliyin ikinci yarısından başlayaraq, keçmiş SSRİ-nin təşkilinədək mövcud olmuş hissəsi bütünlüklə Azərbaycan dövləti və onun hüquq sisteminin formalaşması və inkişafına da aid edilməlidir. Yeni postsovet şəraitində SSRİ-nin qarşısında duran seçimin aşağıdakı müxtəlif variantları müzakirə edilmişdir:

1) postsovet hüququnun “tərcümə” qanunvericiliyinə kütləvi müdaxiləsi, xarici institutların üzünün köçürülməsilə bağlı siyasi-hüquqi aspektdə “zorakı modernləşmə” kimi başa düşülən məcburi “vesternizasiya”ya tabe olmaq;

2) mahiyyətcə hüquqi inkişafda əlahiddəliyi qoruyub saxlayaraq, SSRİ-nin keçmiş respublikaları ilə birlikdə cinsi (Avroasiya) hüquq aliəsində dövlət-eyniləşdirici olaraq qalmağa cəhd göstərmək;

3) Şərqi Avropa xalqlarının pravoslav-dövlət mənafelərinin ümumiliyinin orijinal təfsirinə əsasən slavyan hüquq ailəsinə başçılıq etmək;

4) özünün hüquqi transformasiyası əsasında və dünya hüquq praktikasında baş verən dəyişiklikləri nəzərə alaraq ardıcıl olaraq sivil hüquqi birliyə daxil olmaq [3, s. 47].

Keçmiş SSRİ-nin tərkib hissələrindən biri kimi, Azərbaycanın Rusiyanın da daxil olduğu roman-german hüquq sistemində olması Azərbaycan hüququnun adı çəkilən hüquq sisteminin üzvi tərkib hissəsi olduğuna heç bir şübhə yeri qoymur. Məsələnin digər cəhətini nəzərdən qaçırmaq olmaz. Belə ki, müasir komporativistlər diqqəti başqa səmtə yönəldirlər. Onlar belə bir nəticəyə meyllidirlər ki, hazırda Rusiyanın hüquq sistemində qitə (Avropa) hüquq sisteminə yaxınlaşma və ya inteqrasiya prosesi nəzərə çarpmaqdadır. Məsələn, təsdiq edilir ki, “Rusiya hüququnun roman-german hüququ ilə qohumluğu şübhə doğurmur” (A.X.Səidov). Digər müəlliflər reallığı açıq şəkildə təkzib edərək, inamla bəyan edirlər ki, “bu, nəhayət yeni roman-german modelinə qayıdışın baş verməsi praktika və elm tərəfindən qəbul olunmuşdur” (A.E.Çernokov). Belə ki, özünün sosialist (ideoloji və siyasi) məzmunundan məhrum olmuş Rusiya hüququ roman-german hüquq sisteminə “qayıtmışdır” (A.V.Naumov) [3, s. 93].

Mulahizələrdən aydın olur ki, müasir Rusiya (həmçinin, keçmiş sovet) hüququnun inkişaf ənənələri əhatəsində özünəməxsus tarixi yol keçmiş Azərbaycan hüququ roman-german hüquq ailəsinin german qrupuna doğru hərəkət etməklə yanaşı, eyni zamanda da dünyanın ingilis-sakson və is-

lam hüquq sistemlərinin də mütərəqqi cəhətlərini əxz etməyə meyllidir. Ümumiyyətlə isə, dünyanın müasir hüquq sistemlərinin tədricən bir-birinə yaxınlaşması ənənələri nəzərə çarpmaqdadır. Bu nöqteyi-nəzərdən, əgər müasir Azərbaycan hüququ roman-german hüquq ailəsinin german qrupuna daha çox meyl edirsə, o, bununla özünün həmin hüquq ailəsinə layiqli namizədlərdən biri olduğunu nümayiş etdirir.

Bununla yanaşı, onu da qeyd etmək zəruridir ki, müasir dünyada bütün sahələrdə olduğu kimi, hüquq sferasında da baş verən hadisələrə korkoranə yanaşmaq, qarşıya çıxa bilən nəticələri ətraflı şəkildə fikir süzgəcindən keçirmədən mövcud prosesləri qəti qiymətləndirmək düzgün olmazdı. Biz belə bir mülahizə ilə tam razılaşırıq ki, “hadisələri həddən artıq təriflməməklə şişirtməyə, yaxud onları süni olaraq yüksəklərə qaldırmağa… heç bir zərurət yoxdur” (M.N.Marçenko). Müəllif bu fikri ilə “Rusiya (milli hüququ) hüququnu süni yolla” roman-german hüququnun (“millətlərarası” hüququn, Avropa huququnun) və ya hər hansı digər hüququn himayəsi altına verilməsinə qarşı çıxır [8, s. 18].

Həqiqətən, hüquqi sferaya daxil olmaqla cəmiyyət həyatının istənilən sahəsində, hətta artıq özünü doğrultmuş hadisə və proseslərin süni olaraq şişirdilməsi son dərəcə risklidir. Üstəlik də bu gün dünyanın müxtəlif dövlətlərində qlobalaşma ilə şərtləşən mürəkkəb sosial-siyasi hadisələr, habelə ictimai həyatda və dövlət həyatında baş verən (bəzən ziddiyyətli) proseslər hüquq ailələrin və hüquq sistemlərinin yaxınlaşmasının müvafiq proseslərində intensiv şəkildə əks olunur.

Məlum olduğu kimi, hüquq sistemlərinin özündə həm qitə, həm də ingilis-amerikan hüququnun xüsusiyyətlərini ehtiva edən variasiyaları yaranmışdır. Hüquq ailələrinin bu və ya digər qrupu pozitiv hüququn quruluşunun, hüquqi texnikanın hüquqi məntiqində, mənbələrdə fərqlənsələr də, onlar yenə də cəmiyyətin hüququ və insan hüquqlarını ali sosial dəyər, məhkəməni isə sosial münaqişələrin həllinin ən ədalətli üsul hesab etdiyi ölkələrin hüququnun bir hissəsidir. Əgər ingilisdilli ölkələrdə qanunun rolu, ümumi normaların məcəlləşdirilməsi meydana gəlmişdirsə, qitə Avropasında daha mücərrəd olan normaların formalaşması ənənəsi hüquq sistemlərinin məntiqi üzrə, qanunayğun qarşılıq ənənəsini həyata gətirdi. Həmin qarşılıq ənənə hüquqi tənzimetmə prosesində məhkəmə hüququn və məhkəmə orqanlarının rolunun, onların fərdi hüquqyaratma fəaliyyətinin inkişafının gücləndirilməsindən ibarətdir.

Ümumavropa inteqrasiyası gedişində qitə hüququ və ümumi presedent hüququnun əvvəllər bir yerə sığmaz, keyfiyyətcə müxtəlif olan müddəalarının və konstruksiyalarının (o cümlədən, Avropa İttifaqı Məhkəməsi tərəfindən) işlənib hazırlanması təqdirəlayiq faktdır. Bu onunla şərtləşirdi ki, Qərb hüquq sivilizasiyasına və ya ona yaxın olan sivilizasiyalara aid hüquq sistemləri, onların ümummədəni əsasları, hüququn ümumbəşəri başlanğıclarının inteqrasiya prosesləri və bu başlanğıclara əməl edilməsi üçün müasir şəraitdə prinsipial əhəmiyyət kəsb edir.

XXI yüzilliyin başlanğıcında hüquq sistemlərinin yaxınlaşması daha qlobal xarakter alır. Bununla əlaqədar komporativistlər müqayisəli hüquqşünaslıqda özünün bərqərarolma mərhələsində olan konvergensiya ideyasına daha tez-tez müraciət edirlər (İ.N.Boqdanovskaya). Digər tarixi ölçülərdə qavranılan, məlum politoloji kateqoriya kimi istifadə edilən bu anlayış, hər şeydən əvvəl, milli hüquq sistemlərinin ümumi inkişaf ənənələrini səciyyələndirən bəzi müasir prosesləri müəyyənləşdirməyə xidmət edir. Konvergensiya həm təbii yolla – müxtəlif hüquq sistemləri tərəfindən oxşar normaların tədqiqi vasitəsilə, həm də beynəlxalq hüquqi dövlətlərin hüquq sistemlərinə güclənməkdə olan təsiri altında gerçəkləşdirilən hüququn unifikasiyalı vasitəsi ilə, habelə bir milli hüquq sisteminin hüquq normalarının digərinə transplantasiyası nəticəsində baş verir [7, s. 35-37].

Ölkələrin və xalqların hüquq mədəniyyətinin müxtəlifliyi, rəngarəngliyi hələ də qorunub saxlanmaqdadır. Bu da öz növbəsində onların qloballaşma təzyiqinə müəyyən mənada qarşıdurması xeyrinə şəhadətlilik hüququ verir. Deməli, bu, belə proseslərin yüngülləşməsinə və milli hüquq sistemlərinin «dəyişməkdə olan dünyanın» tələblərinə adaptasiya olunmaq mümkünlüyünə aparır.

Beləliklə, mülahizəmizə görə, Azərbaycan cəmiyyətinin hüquq mədəniyyəti, müəyyən dərəcədə həm də hüquq sistemi Avropa sivilizasiyasının ideya-mədəni postulatları ilə üst-üstə düşür. Ona görə də belə əsaslara istinadən dünya hüquq sisteminin təşəkkül tapmış quruluşuna daxil olmayan əlahiddə hüquq sisteminin yaradılmasına ehtiyacın olub-olmaması hələ də sual altındadır.

**Azərbaycanın hüquq sisteminin tarixi aspektləri**. Hazırda Azərbaycanın hüquq sistemi özünəməxsusluğunu saxlamaqla və eyni zamanda da müasir ümumdünya hüquqi proseslərinə kompleks halda yaxınlaşmaqla özünün təkmilləşmə, islahatlaşma və yeniləşmə mərhələsini yaşayır. Ölkəmizin hüquq sistemi real olaraq mövcuddur. O, qanunauyğun surətdə bəşəriyyətin ümumhüquqi dəyərlərindən qidalanır. Ancaq bununla yanaşı, hüquq sistemimiz hüquq sisteminin müstəqil tipidir. Belə ki, o özünün təşəkkül tapma, formalaşma və inkişaf tarixinə malikdir. Azərbaycanın hüquq sisteminin özünəməxsus milli, səciyyəvi və spesifik əlamətləri vardır.

Azərbaycan hüququnun inkişafındakı varislik onun tarixi təşəkkül tapmış aşağıdakı mərhələlərini fərqləndirməyə imkan verir.

1. **Qədim Azərbaycanın hüquq sistemi.** Qədim Azərbaycan hüququn təşəkkülü və formalaşması ilk dövlət qurumlarının (Aratta, Lullubum, Kutium) meydana gəlməsilə bağlıdır. Dünyanın əksər qədim dövlətlərində olduğu kimi, Azərbaycanda da adət hüququ mövcud olmuş və uzun müddət davam etmişdir. Məlum olduğu kimi adət hüququ yazılmamış hüquq idi. Azərbaycanda hüququn formalaşmasına elminizmin siyasi-hüquqi ideyalarının da müəyyən təsiri olmuşdur.

Qədim Azərbaycanda hüquq sisteminin formalaşmasına möhtəşəm siyasi-hüquqi abidəmiz olan "Avesta"nın mühüm təsiri olmuşdur. Avesta özünün ilk variantında təkcə dini etiqadlar toplusundan deyil, həm də özündə etik-mənəvi (əxlaqi) normaları, əxlaqi göstəriş və tələbləri, davranış qaydalarını, hərbi mədəniyyətini, eləcə də hüquq (ailə, mülkiyyət, vərəsəlik, mülki, cinayət və s.) normalarını, cəmiyyət və dövlət, din əleyhinə əməllərə görə cəzaları ehtiva edən topludan (əgər belə demək mümkündürsə, sistemləşdirilmiş qanunvericilik külliyyatından, bir növ məcəllədən) ibarət olmuşdur. Azərbaycan fəlsəfəsində Avesta haqlı olaraq "Əxlaq Məcəlləsi" (Y.İ.Rüstəmov) adlandırılır.

2. **Erkən Orta əsrlərdə Azərbaycanın hüquq sistemi.** Ehtimal etmək olar ki, V yüzillikdə Azərbaycanın ərazisində mövcud olmuş Albaniyanın cari qanunvericilik və məhkəmə hakimiyyətinin gerçəkləşdirilməsində mühüm rolu olmuş "Aquen Məclisinin qərarı" da ölkəmizin hüquq sisteminin formalaşması və möhkəmlənməsinə müəyyən təsir göstərmişdir. Qərar cəmi 21 maddədən ibarətdir. O, məzmun etibarilə əsasən dini məsələləri əhatə (çünki kilsə qanunlarından ibarətdir) etsə də, həmin qərarın sırf hüquqi səciyyə daşıyan (8 maddəsi) maddələri də vardır.

VIII yüzilliyin baş Alban katolikosu Simson tərəfindən qəbul və təsdiq edilmiş qanunları ("Simson Qanunları") da erkən orta əsr Azərbaycanında hüquq sisteminin inkişafına təsiri olmuş hüquqi hadisələrdən biri kimi qiymətləndirmək olar. Həmin qanunlar ilk növbədə dayaqlarının hüquqi cəhətdən möhkəmlənməsinə, həmçinin din xadimlərinin (kilsə) hakimiyyətinin toxunulmazlığının gücləndirilməsinə xidmət etmişdir.

**"Matikan xəzər datastan" ("Min məhkəmə qərarları toplusu")** Azərbaycanın Sasani imperiyasının tərkibində olduğu dövrdə tərtib edilmiş qanunvericilik toplusudur. Sasani hüquq abidələrindən yalnız bir əsər – "Matikan" ("Min məhkəmə qərarları toplusu") qorunub saxlanmışdır. Eh-

timal ki, Sasani imperiyasında sistemləşdirilmiş (məcəllələşdirilmiş) qanunlar toplusu olmamışdır. Xatırladılan qanunlar toplusu hüquqi kazusların sistemləşdirilməsindən ibarət olub, hüququn və mühakimə icraatının müxtəlif sahələri ilə bağlı məsələləri əhatə etmişdir. "Matikan" 620-ci ildə hakimlər üçün praktiki tövsiyələrdən ibarət məlumat kitabı kimi tərtib edilmişdir.

"Matikan"ın sırf praktiki təyinata malik normaları bütövlükdə Sasani imperiyasının, eləcə də Azərbaycanın qanunvericilik (hüquq) sisteminin fəaliyyətində aşağıdakılar nöqteyi-nəzərindən hüquqi-tarixi əhəmiyyət kəsb etmişdir:

1) "Matikan" hüquq normalarının qanunvericilik toplusu olmaqla yanaşı, siyasi-hüquqi fikrin inkişafına da təkan vermişdir;

2) topluda ehtiva olunmuş hüquq normaları məhkəmə təcrübəsində geniş tətbiq edilmişdir;

3) "Matikan" universal xarakterə və məzmuna malik olmuşdur.

3. **Ərəb işğalı və müsəlman hüquq sisteminin təşəkkülü.** Ərəb dövlətinin formalaşdırılması dövründə (VII yüzillik) yeni dini-siyasi ideologiya – «islam» meydana gəlmişdir. İslam sonradan dünya dinlərindən birinə çevriləcəkdir. İslam, yəni itaət «özünü Allaha təslim etmək». Bu ideologiyanın (dinin) ardıcılları müsəlmanlar adlanırdı [2, s. 47].

Bir sıra dinlərin (iudeyliyin, xristianlığın və s.) dini-siyasi təsəvvürlərindən qidalanmış islam teokratiya ideyasını, dini hakimiyyətin dünyəvi hakimiyyət üzərində üstünlüyünü, bütün yer üzündə ancaq ilahi hakimiyyətin mövcudluğu ideyasını əsaslandırır. Teokratizm islamın müqəddəs kitabı olan Quranda ifadə edilən siyasi ideyaların səciyyəvi cəhətidir.

İlkin islam bütün dünyəvi və dini hakimiyyətin **peyğəmbərə** (Məhəmməd peyğəmbərə – Allahın elçisinə) onun ölümündən sonra isə xəlifələrə (peyğəmbərin müavinlərinə) məxsus olduğunu əsaslandırır. Ancaq əgər birinci dörd (mömin) xəlifələr dövründə ali hakimiyyət aşkar surətdə sırf teokratik xarakter daşımışdırsa (o zaman hətta dövlətin əmlakı Allahın əmlakı hesab edilmişdir), 945-ci ildən sonra həqiqi hakimiyyət dünyəvi hökmdarlara – sultanlara, əmirlərə keçmişdir.

İslam hüququnun əsas mənbəyi hesab olunan Quran xüsusi mülkiyyəti bir növ müqəddəsləşdirərək, onun mühafizə edilməsinin zəruriliyini əsalsandırır. İslam hüququna uyğun olaraq xüsusi mülkiyyətə qəsd edən şəxslər dövlət tərəfindən sərt cəzalara məruz qalırlar.

Quranın siyasi-hüquqi ideologiyası islamın anlayışları ilə tam şəkildə səsləşir. Bu ideologiyanın alfa və ameqası itaət etmək və barışıqdan ibarətdir. Əsl həyat, onun mənası bu dünyada deyil, axirət dünyasında təzahür edir. Ona görə də cənnətə düşməyi arzu edən hər bir mömin müsəlman yoxsulluqla və mövcud maddi vəziyyəti ilə barışmalı,əks təqdirdə onu axirət dünyasında əbədi cəza gözləyir.

İslam hüququnun tarixi inkişafını düzgün dərk etmək üçün "fiqh" və "şəriət" terminlərinin tərifini bilmək zəruridir. Fiqh sərbəst halda "islam qanunu", "islam hüququ" kimi tərcümə olunur. Bu, eynilə şəriətə də aiddir. Lakin bu terminlər nə ərəb dilində, nə də müsəlman aliminin nəzərində sinonimlər deyil.

Fiqh hərfən niyyətin nədən ibarət olduğunun düzgün dərk edilməsi (niyyətin mahiyyətinin düzgün başa düşülməsi) deməkdir. Lakin praktiki kontekstdə fiqh islam hüquq normalarının, fətvaların müsəlman hüququnun əsas mənbələrində – Quranda və Sünnədə olan əsaslardan çıxarışlar etmə elmidir. Buna görə də o, sözün ən geniş mənasında islam hüquq normalarının bu şəkildə edilən çıxarışlarının bütöv məcmusu deməkdir.

Şəriət hərfi mənada heyvanların hər gün su içmək üçün gəldikləri bulaq və ya düzgün yol deməkdir ki, bu da öz ifadəsini Quranın 45-ci əl-Casiyə surəsinin 18-ci ayəsində tapmışdır: "Sonra (ya

Məhəmməd!) səni də dində şəriət sahibi etdik. Sən ona (o şəriətə) tabe ola və (haqqı) bilməyənlərin nəfislərindən gələn istəklərə uyma".

Terminlərin yuxarıda xatırladılan təriflərindən onların arasında aşağıdakı üç fərq meydana çıxır:

şəriət – bu, Quranda və Sunnədə ehtiva olunmuş göstərişlərin vahid məcmusu, fiqh isə şəriət əsasında konkret situasiyalara tətbiq edilməsi olan normaların məcmusu, bilavasitə şəriətin özündə olmayan izahdır;

şəriət birdəfəlik və dəyişməz olaraq müəyyən edilmiş, fiqh isə tətbiq edildiyi hallara uyğun şəkildə dəyişdirilir;

şəriətin göstərişlərinin böyük əksəriyyəti ümumi xarakterə malikdir; onlar əsas prinsiplərin təməlini qoyur. Fiqh normaları isə konkret istiqamətə malikdir; onların şəriətin əsas prinsiplərinin konkret hallara necə tətbiq edildiyini göstərir.

Söhbətin ilahi qanunlara tabe olmaq vəzifəsi, habelə bu qanunları pozmağa görə məsuliyyət haqqında getdiyi zaman islam qanunvericiliyi insanları qanun qarşısında bərabərhüquqlu hesab edir. Quranda xatırladılan qanunlar insanların ayrı-ayrı kateqoriya və qruplarını fərqləndirmir. Bunu aşağıdakı kəlamlardan da görmək mümkündür: "Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etməyinizi əmr edir…" (Quran: ən-Nisa surəti (4), 58-ci ayə); "Ey iman gətirənlər! Allah qarşısında (borcunuzu yerinə yetirməkdə) sabit-qədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!" (Quran: əl-Maidə surəsi (5), 8-ci ayə);

"…Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi (kasıb qohum-əqrəbaya şəriətin vacib bildiyi tərzdə əl tutmağı) buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edər…" (Quran: ən-Nəhl surəsi, 90-cı ayə).

Yuxarıda ifadə edilənlər əsasında Azərbaycanda da XIX yüzilliyin birinci yarısınadək mövcud olmuş müsəlman hüquq sistemini aşağıdakı kimi xülasələşdirmək olar.

1. Erkən dövrün islam hüququ vəhylə nazil olan, Quranda yazılan və Sünnədə təcəssüm olunan şəriət normalarından ibarət idi. Şəriət normaları başlıca olaraq islam dininin ideoloji əsaslarına, imana (Allaha inama, etiqada), habelə yaranmaqda olan müsəlman dövlətinin təşkili üçün zəruri olan sosial-iqtisadi qanunlara aid idilər.

2. Quranda ehtiva olunan islam qanunlarının başlıca mahiyyəti və məqsədi insanları və cəmiyyəti dəyişdirməkdən ibarət olduğuna görə, faydalı, o cümlədən islamın təşəkkül tapmasına qədər mövcud olmuş bəşəri adət və ənənələr tanınmış və ilahi (teokratik) qanunvericilik sisteminə daxil edilmişdir.

3. Dəyişiklik etmək məqsədinə nail olmaq üçün Quranda təsbit edilmiş qanunvericilik özündə aşağıdakı prinsipləri ehtiva edirdi:

- çətinliklərin aradan qaldırılması;
- dini vəzifələrin sayının azaldılması;
- sosial rifahın yaxşılaşdırılması;
- ümumi ədalətin gerçəkləşdirilməsi.

4. **XV-XVIII yüzilliklərdə Azərbaycanda hüquq sistemi.** XV yüzillikdə Azərbaycanda üç müstəqil qüdrətli feodal dövləti – Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri olmuşdur. Bu yüzillikdə hökmdar fərmanları və digər qanunvericilik aktları dünyəvi hüququn inkişafına xeyli təsir göstərmişdir. Ağqoyunlu hökmdarları Uzun Həsənin "Qanunnaməsi" və Gödək Əhmədin təsər-

rüfat-iqtisadi sahəni əhatə edən hüquqi islahatları hüquq sisteminin təkmilləşdirilməsində əhəmiyyətli rol oynamışdır.

Həmin dövrdə mühüm qanunvericilik aktı kimi, Uzun Həsənin "Qanunnaməsi" bir çox sahələrdə ictimai münasibətlərin dürüst tənzimlənməsində böyük əksəriyyət kəsb etmiş, bir növ hüquqi islahat xarakteri daşımışdır. Belə ki, "Qanunnamə"yə əsasən qazıların (şəriət məhkəmələri hakimlərinin) seçki yolu ilə vəzifəyə gəlməsi müəyyənləşdirilmiş, mülki-hüquqi iddiaların müddətləri (30 ilədək) uzadılmışdır. "Qanunnamə"yə qədər qazılar təyin (indi isə müəyyən müddətə seçilməli idilər) edilirdilər. "Qanunnamə" növbəti yüzillikdə də öz qüvvəsini saxlamışdır.

Gödək Əhmədin hüquqi islahatı təsərrüfat-iqtisadi sfera ilə yanaşı, dövlət-hakimiyyət strukturunu da əhatə etmişdir. İslahat ölkənin vergi sistemindən də yan keçməmişdir. Hüquq ədəbiyyatında göstərildiyi kimi, 20 növ vergi və mükəlləfiyyətlər ləğv edilmişdir. Köçəri hərbi əyanların gəliri dövlət divanxanasının gəlirinə nisbətən azalmışdır (R.A.Əkbərov).

Haqqında söhbət gedən yüzillikdə "Teymur Qanunnaməsi" bütün imperiyada olduğu kimi, Azərbaycanın da ərazisində qüvvədə olmuşdur. Qanunnamə müəyyən mənada sistemləşdirilmiş normalardan ibarət məcəlləni də xatırlatmışdır. Belə ki, həmin hüquqi aktda cinayət (cismani cəzaların tətbiqinə) cəzalarına xeyli yer verilmişdir.

XVI yüzillikdə Azərbaycanın hüquq sisteminə müsbət təsir göstərən mühüm tarixi hadisə Səfəvilər dövlətinin yaranması olmuşdur. Səfəvilər mərkəzləşdirilmiş dövlət kimi 1501-1736-cı illərdə mövcud olub.

Son dərəcə geniş və mürəkkəb dövlət aparatına malik olan Səfəvilərin hüquq sistemində həm şəriət, həm də dünyəvi məhkəmələr fəaliyyət göstərmişdir.

Səfəvilər feodal dövləti kimi, böyük torpaq ehtiyatlarına malik idi. Torpaq üzərində feodal xüsusi mülkiyyət hüququ hökmran idi. Hüquq ədəbiyyatında göstərilir ki, Səfəvilər dövründə kəndlilərin torpağa məhkum edilməsi barədə qaynaqlarda yalnız bir sənəd mövcuddur. 1612-ci ildə I Şah Abbasın Ramazan ayında (7 noyabr - 7 dekabr) verdiyi fərmanda… kəndlilərin 12 il müddətinə məhkum edilə bilməsi qeyd olunur (R.A.Əkbərov). Onu da göstərmək zəruridir ki, Azərbaycanda feodalizm dövründə təhkimçiliyin rəsmi hüquq almasına dair tarixi məlumata təsadüf edilmir.

Səfəvilər dövlətində vergi və mükəlləfiyyətlərin geniş sistemi mövcud olmuşdur. Maraqlıdır ki, hətta qumarxanalardan, musiqiçilərdən, xoruz döyüşdürənlərdən, sallaqxanalardan və quşbazlardan da vergi alınırmış. Belə mənzərə müəyyən dərəcədə kapitalizmin iqtisadi quruluşun təbiətinə uyğun gəlir. Şübhəsiz ki, bu Səfəvilər cəmiyyətində ağlabatan olmamışdır.

Beləliklə, Səfəvilər dövlətinin hüqüq sistemi həm dini (teokratik), həm də dünyəvi hüququn xüsusiyyətlərini özündə cəmləşdirmişdi. Bunlardan hansına daha çox üstünlük verildiyini isə söyləmək çətindir.

XVIII yüzillik Azərbaycan tarixində dövlət qurumları kimi mövcud olmuş xanlıqların olması ilə əlamətdardır. Tədqiqatçılar bu yüzilliyi haqlı olaraq «Azərbaycan xanlıqlarının tarixi» dövrü də adlandırırlar. Xanlıqların hər biri özünəməxsus müstəqil dövlət qurumu idi. Ölkədəki belə pərakəndəlik vahid hüquq sisteminin formalaşmasının nəinki qarşısını almış, həm də onu ümumi inkişaf və təkmilləşmədən saxlamışdı. Azərbaycan xanlıqlarında dünyəvi hüquq normaları tətbiq edilsə də, şəriət normaları prioritet təşkil edirdi.

XVIII yüzilliyin ikinci yarısında mövcud olan 21 Azərbaycan xanlığından yalnız Şəki, Qarabağ və Quba ən qüdrətli xanlıq olmuşdur. Səfəvilər dövründə mövcud olmuş feodal torpaq mülkiyyəti formaları Azərbaycan xanlıqlarında daha da inkişaf etmişdi. Vergi və mükəlləfiyyətlər də, demək olar ki, ötən yüzilliklərdə olduğu kimi qalmışdı. Bütün xanlıqlarda ictimai münasibətlərin tən-

zimləyicisi qismində islam hüququ (fiqh) çıxış edir, hüquqi münaqişə və mübahisələr şəriət normaları əsasında həll edilirdi. Şübhəsiz, belə pərakəndəlik Azərbaycanın ərazisində vahid hüquq sisteminin formalaşmasına mənfi təsir göstərməyə bilməzdi.

Azərbaycanın dövlət və huquq tarixində XVIII yüzilliyə aid hüququn mənbəyi kimi bir qanunvericilik aktının – "Car Tala "Qanunnaməsi"nin adı çəkilir (R.A.Əkbərov). "Qanunnamə" özündə həm şəriət normalarını, dünyəvi hüquq normalarını ehtiva etməklə, təkcə Car-Balakən bölgəsinin deyil, həmçinin də digərxanlıqların hüquq sisteminin fəaliyyətinə təsir göstərmişdir [3, s. 29-31].

5. **Azərbaycanın Rusiya imperiyasının tərkibindəki hüquq sistemi (XIX yüzillik – XX yüzilliyin başlanğıcı).** 1828-ci il fevralın 10-da bağlanmış Türkmənçay müqaviləsi Azərbaycanı çar Rusiyasının müstəmləkələrindən birinə çevirdi. Ölkənin ikiyə parçalanması onun sosial-iqtisadi və siyasi-hüquqi həyatının bütün sferalarına öz mənfi təsirini göstərdi. Ədalət naminə qeyd etmək zəruridir ki, ölkənin feodal İranın tərkibində qalmış Cənub hissəsi ilə müqayisədə artıq kapitalist münasibətlərinin inkişaf etdiyi Rusiyanın tərkibinə qatılan Şimal hissəsi elmi-mədəni cəhətdən öz inkişafını tədricən bərpa etməyə başladı. Belə ki, Şimali Azərbaycanın Avropa elmi və iqtisadiyyatı ilə tanışlığı özünəməxsus pozitiv cəhətlərə də malik idi. O cümlədən, Azərbaycan hüquqşünaslıq elmində Rusiya vasitəsilə Avropa hüquqşünaslığının nailiyyətləri ilə tanış olmaq, ondan faydalanmaq imkanı əldə etdi.

Zorla birləşdirilmədən sonra Azərbaycan xanlıqlarının və ölkəni tərk etmiş feodalların torpaqları dövlət xəzinəsinin (Rusiyanın) mülkiyyətinə keçdi. Bu vaxt dövlət torpaqları ilə yanaşı feodal və bəy torpaqları da var idi.

Xanlıqlar dövründə mövcud olmuş təsərrüfat-iqtisadi, hərbi-siyasi pərakəndəliyin və ictimai münasibətlərin tənzimlənməsi sahəsində hüquq normalarının qeyri-mükəmməlliyinin nəticələri imperiya dövründə də xeyli müddət qalmaqda davam etdi. Doğrudur, hüququn ümumi sisteminə təsir edən hüquqi islahatların (o cümlədən, məhkəmə islahatının) aparılması bəzi dəyişikliklərə gətirib çıxarsa da, onların bütövlükdə hüquq sisteminə müsbət təsirini göstərmək çətindir. Çünkihəmin hüquqi islahatlar imperiyanın maraqlarının təmin olunması zəminində həyata keçirilmişdi. Məsələn, Rusiyanın digər ucqarlarında olduğu kimi, Azərbaycanda da islahatlardan sonra mülki və cinayət mühakimə icraatının rus dilində aparılması əhalinin hüquqlarının təminatında müəyyən çətinliklər yaratmışdı. Rus dilini bilməyən yerli, xüsusən də kifayət qədər savadı olmayan əhali (əsasən kənd əhalisi) məhkəmələrdə öz pozulmuş hüquqlarının bərpasına son dərəcə çətinliklə nail olur, bəzən, ümumiyyətlə, ola bilmirdilər. Bu isə onları rus məmurlarının başçılığı ilə həyata keçirilən ədalət mühakiməsinə müraciət etmək imkanından məhrum etmək demək idi.

Beləliklə, Azərbaycanın Rusiya imperiyasının tərkibində olduğu dövrdə mövcud olmuş hüquq sisteminin vəziyyətini o dövrkü Rusiya hüquq sisteminin vəziyyətiilə müştərək halda təsəvvür etmək, fikrimizcə, səhv olmazdı. Ümumiyyətlə isə, imperiyanın hüquq sistemində (əgər bir sıra qanunvericilik aktlarının qüvvəyə minməsi nəzərə alınmazsa) elə bir əsaslı yeniliyin olduğunu söyləmək qeyri-mümkündür [3, s. 53-56].

6. **Sovet Sosialist hüquq sistemi (1917-1991-ci illər).** Sovet sosialist hüququ rəsmi kommunist doktrinası və ideologiyasına uyğun formalaşmış hüquq sistemi idi. Sovet dövlətinin təşəkkülününilk illərində onu proletar hüququ da adlandırırdılar. Bu hüquq dövlətin hüquq üzərində prioritet başlanğıclarını bəyan edirdi.

Sosialist eksperimenti dövrünün hüququ öz mahiyyətinə görə dövlətin cəmiyyət həyatının bütün sferalarına hər yerdə və sərt müdaxiləsini ört-basdır edirdi. Bu da öz növbəsində ümumi hüquq

institutlarının dövlətdən tam asılı vəziyyətə düşməsinə, əvvəlcə müxalifətin, sonra isə qeyri-rəsmi baxış və hərəkətlərin təqibinə, prosessual hüquqda prosedur formaların bəsitləşdirilməsinə, müqəssirlərin və məhkumların müdafiə hüquqları və imkanlarının məhdudlaşdırılmasına, repressiyaların gücləndirilməsinə, habelə öz ideoloji iradəsi ilə hərəkət edən vətəndaşların bəzən istintaqsız və məhkəməsiz azadlıqdan məhrum edilməsinə gətirib çıxarmışdır.

Hüququn özünün inkişafını sovet hakimiyyətinin mahiyyətindən ayırmaq mümkün deyildi. Sovet hakimiyyəti isə hakimiyyətin bölgüsü prinsipini inkar edir, normativ-hüquqi aktların verilməsi prosesini sinfi mövqelərə aid edirdi. Bu, sovet dövlətinin siyasi iradəsinin hüquqdan və qanunlardan üstün olduğunu xalqın düşüncəsinə “zorla calamaq”dan savayı başqa bir şey deyildi.

Keçmiş sovet dövlətində həm nümayəndəli orqanlar, həm də icra hakimiyyəti orqanları kimi ali orqanlar da qanunvericilik səlahiyyətinə malik idilər. “Qanun” anlayışının izahı çox geniş verilirdi. Belə ki, Ümumrusiya Sovetlər Qurultayının, onun Mərkəzi İcraiyyə Komitəsinin (MİK), MİK-in Rəyasət Heyətinin və Xalq Komissarları Sovetinin (XKS), eləcə də ayrı-ayrı xalq komissarlıqlarının hüquqi aktları da həmin anlayışla əhatə olunurdu. Qoca tarix hüququn bu səviyyədə siyasiləşdirilməsinin heç vaxt şahidi olmamışdır. Adları çəkilən orqanların hər hansı hüquqi aktı sovet dövlətində qanun hesab olunurdu.

Sovet hakimiyyətinin 1917-ci ilin noyabrında XKS tərəfindən qəbul edilmiş “Qanunların təsdiq və dərc edilməsi qaydası haqqında” birinci dekretində qərara alınırdı ki, “qanunların tərtib və dərc edilməsi Fəhlə və Kəndli deputatlarının Sovetlər Qurultayı tərəfindən seçilmiş Müvəqqəti Fəhlə və Kəndli hökuməti vasitəsilə həyata keçirilir. Hüquq tarixçisi Y.A.Yurtayevin qeyd etdiyi kimi, “tərtibetmə” termininin olmasına baxmayaraq, bu aktın məzmunu söhbətin məhz qanunların qəbulu haqqında getdiyinə şübhə yeri qoymur. Deməli, icraorqanı sovet hakimiyyətinin ilk günlərindən qanunyaratma (hüquqyaradıcılıq) funksiyasını mənimsəyərək özününküləşdirmişdir. Bu isə, fikrimizcə, hüquqşünaslığa, hüquq elminə hörmətsizliyin və saymazlığın ifrat dərəcəyə qaldırılmış iyrənc nümunələrindən biri olmuşdur.

Həmin dövrdə Azərbaycan SSR-in 1937-ci il Konstitusiyası (SSRİ-nin 1936-cı il Konstitusiyasının ardınca) çoxsəviyyəli qanunyaratma qaydasını respublika səviyyəsində ləğv edir və Ali Soveti yüksək hüquqi qüvvəyəmalik normativ aktlar verən yeganə qanunvericilik orqanı kimi təsbit edirdi. SSRİ-nin növbəti – 1977-ci il (Azərbaycan SSR-in 1978-ci il) Konstitusiyası qanunların təkcə SSRİ Ali Soveti tərəfindən deyil, həm də ümumxalq səsverməsi (referendumla) ilə qəbulunun mümkünlüyühaqqında müddəanı təsbit edirdi. Lakin real qanunvericilik funksiyasına malik olan faktiki orqan kimi Ali Sovetin tərkibindən seçilən (faktiki olaraq ölkənin partiya rəhbərliyi tərəfindən təyin edilən) Rəyasət heyəti idi. Rəyasət heyəti məhdud dairədə şəxslərdən (bu şəxslərin hüquqşünas olub-olmamasının isə heç bir əhəmiyyəti yox idi; onlar kolxozçudan, fəhlə və ya kəndlidən, müəllim və ya akademikdən də ibarət ola bilərdi) ibarət idi. Bu, dünyanın heç bir sivil cəmiyyətində alternativi olmayan praktika idi.

Belə bir cəhəti də göstərmək lazımdır ki, qanun sovet sosialist dövlətinin nə hüquq sistemində, nə də sovet hüququnun real mənbələri sistemində üstün mövqeyə, birinciliyə malik deyildi. Bu dövlətdə partiya-inzibati qərarlar prioritet təşkil edirdi. Yəni partiyanın direktiv xarakterli qərarları nəinki qanundan, hüququn özündən üstüntutulurdu. Bütünbunların acı nəticəsi idi ki, məhkəmə, istintaq və prokurorluq orqanı, habelə bütün digər hüquq-mühafizə strukturları öz fəaliyyətində qanunları deyil, kommunist partiyası mərkəzi komitəsinin qərarlarını rəhbər tuturdular. Buna əməl etməyən müvafiq səlahiyyətli şəxsləri ilk növbədə kommunist partiyası sıralarından xaricetmə, deməli, təbii olaraq cinayət məsuliyyətinə cəlbetmə gözləyirdi. Çünkikeçmiş sovet dövlətində hökmran-

lıq edən kommunist ideologiyasının devizi belə idi: "Əgər bizim kimi düşünmürsə, deməli, bizdən deyil və belə şəxs mütləq qaydada cəzalanmalıdır". Odur ki, həmin müdhiş dövrdə çox nadir hallarda partiya sıralarından xaric edilən (istər yüksək, istərsə də orta səviyyəli vəzifəli) şəxs cinayət məsuliyyətindən yaxa qurtara bilirdi.

7. **Müasir Azərbaycanın hüquq sistemi.** Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən, xüsusən də 1995-ci ildən sonra ölkənin hüquq sistemində bir sıra dəyişikliklər baş verdi, qanunvericilik sahəsində bəzi irəliləyişlərə nail olundu. Həmin pozitiv irəliləyişlərə aşağıdakıları aid etmək olar:

1) 12 noyabr 1995-ci il tarixdə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası;

2) ölkə Konstitusiyasının qəbulundan sonra geniş vüsət almış hüquqi islahatların (məhkəmə islahatının) gerçəkləşdirilməyə başlanması;

3) respublika qanunvericiliyinin demək olar ki, bütün sahələrində yeniləşdirmə işlərinə start verilməsi;

4) 2000-ci ilin sonuna qədər olan dövr ərzində ölkədə məcəlləşdirmə işlərinin başa çatdırılması;

5) ölkənin məhkəmə quruluşunun yeniləşdirilməsilə bağlı tədbirlərin həyata keçirilməsinin fəallaşdırılması;

6) respublikada vəkillik fəaliyyətinin yaxşılaşdırılmasına dair hüquqmüdafiə sisteminin yenidən qurulmasına başlanması;

7) insanın, vətəndaşın əsas hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi sahəsində dövlətdaxili hüquqla yanaşı, beynəlxalq-hüquqi-mexanizmlərin də ölkədə tətbiqinin gücləndirilməsilə bağlı xüsusi tədbirlərin reallaşdırılması, bununla əlaqədar beynəlxalq-hüquqi əlaqə və münasibətlər sferasının daha da genişləndirilməsi [2, s. 35].

Azərbaycanın müasir hüquq sisteminin normal inkişafını ləngidən bəzi neqativ amillərə aşağıdakıları aid etmək olar:

- respublika səviyyəsində hüquqyaratma fəaliyyətini gerçəkləşdirməyə xidmət edən səlahiyyətli şəxslərin peşəkarlığının qənaətbəxş olmamas ilə əlaqədar qanunvericiliyin ayrı-ayrı sahələrində bəzi qeyri-mükəmməliklərin hələ də mövcud olması;

- respublikanın məhkəmə orqanlarında çalışan bəzi hakimlərin peşəkarlığının aşağı səviyyədə olması, eləcə də ədalət mühakiməsinin gerçəkləşdirilməsi sferasında hələ də avtoritar metodların az da olsa, üstünlük təşkil etməsi;

- bütövlükdə cəmiyyətdə hüquq mədəniyyətinin istənilən səviyyədə olmaması, hüquq-mühafizə (xüsusən də daxili işlər) orqanlarının bir qisim əməkdaşlarının tutduğu vəzifəyə uyğun olmaması, polis orqanlarında hüquq elmindən, xüsusilə də kriminologiya elmindən tamamilə xəbərsiz olan şəxslərin çalışması (belələrinin bəzən sayca üstünlüktəşkil etmələri);

- hüquq-mühafizə orqanları əməkdaşlarının ixtisasının və peşə səviyyəsinin artırılması sahəsində işlərin zəif təşkil edilməsi və s.

8. Azərbaycanın hüquq mənbələrinin sistemi. Azərbaycan öz dövlət quruluşuna görə unitar respublikadır. Respublika səviyyəsində Azərbaycan hüququnun mənbələrinin sistemi aşağıdakı iyerarxiyadan ibarətdir:

1) Azərbaycan Respublikasının Konstitusiyası. Konstitusiya Azərbaycanın konstitusiya quruluşunun əsasları, insanın, vətəndaşın hüquq və azadlıqlarını, dövlət başçısının səlahiyyətlərini, ölkə parlamentinin (Milli Məclisin) təşkili və fəaliyyətinin, habelə məhkəmə hakimiyyətinin və yerli özünüidarənin əsaslarını təsbit edir [1, s. 5];

2) Azərbaycan Pespublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi. Bu mövqe Konstitusiya Məhkəməsinin müəyyən hüquqi problemlərə dair ümumi nəticələri özündə ehtiva edən qərarlarından ibarətdir. Həmin qərarlar hüququn bütün subyektləri üçünümumməcburi xarakterə malikdir;

3) Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi aktları;

4) Azərbaycan Respublikası Prezidentinin normativ fərmanları;

5) Azərbaycan Respublikası Milli Məclisinin qanunları və digər normativ-hüquqi aktları;

6) Azərbaycan Respublikası Nazirlər Kabinetinin (Azərbaycan Respublikası hökumətinin) qərarları və sərəncamları;

7) Azərbarcan Respublikası icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktları.

Müasir Azərbaycan Respublikasında ictimai münasibətlərin hüquqi tənzimlənməsinə müəyyən təsiri ola bilən digər hüquq mənbələrinə, məsələn, keçmiş SSRİ-də əvvəlki idarəçilik formasında mövcud olmuş normativ-hüquqi aktlar aid oluna bilər. Qeyd etmək zəruridir ki, belə aktların sayı azalmağa doğru getməkdədir.

Beynəlxalq hüququn hamılıqla qəbul olmuş norma və prinsiplərinin, beynəxalq məhkəmə praktikasının, habelə İnsan hüquqları üzrə Avropa Məhkəməsi qərarlarının müasir Azərbaycan hüququnun mənbələri olub-olmaması haqqında məsələ mübahisəlidir.

**Biblioqrafiya**


1. Azərbaycan Respublikasının Konstitusiyasi. – Bakı: 2016.
2. Cəfərli N.H.Müqayisəli hüquqşünaslıq. – Bakı: Elm və Təhsil, 2018. – 332 s.
3. Məlikova M.F. Dövlət və hüquq nəzəriyyəsi. - Bakı: Maarif, 1988. – 383 s.
4. Бернам В. Введение в право и правовую систему США. М.: Новая юстиция, 2006. – 332 с.
5. Быкова Е.В. Современные процессы сближения и размежевания правовых систем. М.: Юрлитинформ, 2012. – 232 с.
6. Давид Р., Жоффре-Спинози К. Основные правовые системы современности. - М.: Международная отношения, 2009. – 492 с.
7. Леже Раймон. Великие правовые системы современности: сравнительно-правовой подход. М.: Волтерс Клувер, 2010. – 592 с.
8. Марченко М.Н. Правовые системы современного мира: Учебное пособие М.: Зерцало-М, 2008. – 528 с.


**Курбанов Г.С.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.69.50-62**
**УДК: 340.1**

**Правовая система современного Азербайджана**

♦**Курбанов Габил Сурхай оглы –** доктор юридических наук, профессор, председатель Независимого Профсоюза работников НАНА (Азербайджан). E-mail: professorqurbanov@yandex.com

**Аннотация:** В начале представленной статьи утверждается, что правовая система Азербайджана представляет собой самостоятельный тип современного права. Становится очевидным, что азербайджанское право, прошедшее уникальный исторический путь в традициях развития современного российского (как и бывшего советского) права, движется в сторону германской группы романо-германской правовой семьи, но в то же время оно также пытается впитать в себя прогрессивные аспекты англо-саксонской и исламской правовых мировых систем.

В настоящее время правовая система Азербайджана переживает этап своего совершенствования, реформирования и обновления, сохраняя при этом свою уникальность и в то же время комплексно приближаясь к современным глобальным правовым процессам. Правовая система нашей страны реально существующая, и закономерно подпитывается общечеловеческими ценностями. Но кроме этого, наша правовая система является самостоятельным типом правовой системы, и соответсвенно имеет свою историю становления, формирования и развития. В заключении указывается, что правовая система Азербайджана имеет свои национальные, характерные и специфические черты.

**Ключевые слова**: современное право; власть; правовая семья; характеристики; общеправовые ценности; порядок законотворчества; специфические признаки.

**Библиография**

1. Конституция Азербайджанской Республики. – Баку, 2016 (на азерб. яз.).
2. Джафарли Н.М. Сравнительное правоведение. – Баку: Наука и образование, 2018 (на азерб. яз.).
3. Меликова М.Ф. Теория государства и права. - Баку: Маариф, 1988. (на азерб. яз.).
4. Бернам В. Введение в право и правовую систему США. - М.: 2006. – 332 с.
5. Быкова Е.В. Современные процессы сближения и размежевания правовых систем. - М.: Юрлитинформ, 2012. – 232 с.
6. Давид Р., Жоффре-Спинози К. Основные правовые системы современности. - М.: Международная отношения, 2009. – 492 с.
7. Леже Раимон. Великие правовые системы современности: сравнительно-правовой подход. - М.: Волтерс Клувер, 2010. – 592 с.
8. Марченко М.Н. Правовые системы современного мира: Учебное пособие. - М., 2008. – 528 с.